

# ÜRƏKLƏ ZİYALI ADLANDIRA BİLƏCƏYİMİZ HAMLET İSAXANLI

*1 Mart - ad günü münasibətilə*

# HAMLET ISAKHANLI - SOMEONE WHOSE INNATE INTELLIGENCE SHINES THROUGH

*March 1- on the occasion of his birthday*

*Alik Əlioğlu* *Hamlet İsaxanlı*

Hamlet İsaxanlı ürəklə ziyalı adlandıra biləcəyimiz tək-tük adamlardandır.

Mən onu, 20 ilə yaxındır ki, tanıyıram.

Xəzər Universitetinin əvvəl tələbəsi, sonra əməkdaşı olmuşam.

Hamlet müəllim Xəzər universitetini öz balası kimi sevir, ovcunda qoruyur, onu bütün çirkablardan uzaqda tutmağı bacarır.

Digər universitet rektorları koridorda gəzərkən mühafizəçiləri tələbə ilə rektor arasında bir sədd yaradanda, Hamlet İsaxanlı tələbələrin arasından keçib öz iş otağına gedir, dəhlizdə ona yaxınlaşan, dərdini deyən bütün tələbələri bir-bir dinləyir.

Sonralar, mən orada işləyəndə dəfələrlə iş otağımın qapısı qəfil döyülür, Hamlet müəllim gəlib oturub işdən, ədəbiyyatdan, həyatdan danışırdı.

Onun söhbətləri mənim üçün həmişə bir ustad dərsi olub.

Mən onu rəhmətlik Nailəxanımla birgə Əhmədlidəki balaca evimizə dəvət edəndə, heç ağlıma gəlməzdi ki, dəvətimi qəbul edər.

Onları evimizdə görmək bizim üçün o qədər xoş olmuşdu, onların söhbətindən o qədər zövq almışdıq ki, həmin gün yaşadığımız ən gözəl günlərin siyahısındadır.

Hamlet İsaxanlı qazandığı uğurlara, əldə et-

Hamlet Isaxanli is someone whose innate intelligence shines through.

I have known him for almost 20 years.

I was first a student, and then an employee of Khazar University.

Hamlet Isakhanli cherishes Khazar University like his own child, protects it dearly, and manages to keep it away from any kind of harm. While other university rectors are accompanied by guards who create a barrier between them and the students as they walk down the corridor, Hamlet Isakhanli passes through the students and goes to his office.

Later, when I worked there, many times there was a sudden knock on the door of my office, teacher Hamlet would come and sit and talk about work, literature and life.

His conversations have always been a lesson in mastery for me.

When I invited him to our modest home in Ahmedli, alongside the late Nailekhanim, I never imagined he would accept.

Having them at our home was truly delightful, and we relished their conversation to such an extent that this day remains one of our fondest memories. Hamlet Isakhanli, despite his achievements, never aspired to become an "official" .

diyi müvəffəqiyyətlərə rəğmən, heç vaxt məmurlaşmadı. Öz kövrək qəlbini, şair ruhunu həmişə təmiz saxladı.

Mövlud Süleymanlının kiçik oğlu Elayın toyu idi. Yan masada tanınmış adamlar, dövlət məmurları əyləşmişdi. Hamlet müəllim zala daxil olanda ona həmin masada yer göstərdilər. O bizə tərəf yaxınlaşanda məni gördü və ona yer göstərən adama gülümsəyərək, "Mən öz işçimin yanında oturacam" dedi və gəlib mənim yanımda əyləşdi. Bu mənim üçün çox böyük insani keyfiyyətdir. Mənə görə, həyatda ən gözəl nemətlərdən biri təvazökarlıqdır.

Hamlet İsaxanlını bu keyfiyyətlərinə görə özümə doğma bilirəm. O doğma adamdır, kövrək adamdır, ruh adamıdır.

Ad günün mübarək, böyük adam, şeir adam.

Onu ən sevdiyim öz şeirlərindən biri ilə təbrik edirəm.

**Xəzər Universitetinin Elektron Media mərkəzinin koordinatoru, şair Alik Əlioğlu**

He always preserved his fragile heart and poetic spirit. It was the wedding of Mevlut Suleymanli's youngest son, Elay.

Celebrities and government officials were sitting at the neighboring table.

Hamlet Isakhanli, upon entering the hall, was shown a seat at the table.

When he approached me, he saw me and smiled at the one who indicated the chair to him, and said, "I'll sit next to my colleague." And he came and sat next to me. For me, this was a great human quality. In my opinion, modesty is one of the greatest blessings in life. Because of these qualities, I hold Hamlet Isakhanli dear to my heart.

He is a true man, fragile and soulful.

Happy birthday, great man, man of poetry. I extend my congratulations with one of my favorite poems authored by him.

**Coordinator of Khazar University's Electronic Media Center, poet Alik Alioglu.**

## *TƏK QALMAQ İSTƏYİRƏM*

Yoruluram
Şəhərlərin hay-küyündən,
Qaçmaq istəyirəm hərdən
İnsanlardan, bu gündən.
Bezirəm
Müdrik səbrdən,
Dünyanın gərdişinə dözümdən;
Uzaqlaşmaq istəyirəm
Özümdən.
Böyük-böyük iclaslarda,
Haylı-küylü məclislərdə
Sevmirəm söz deməyi,
Ya boş sözü dinləməyi.
Əvəzində,
Düşünürəm xəfif-xəfif...
Bu yandasa bir hərif
Kürsüdən yağdırır
Tərif, tərif, tərif.
Lüğətində yoxdur qürur,
Cümləsində çox azdır
Xoş mübtəda, yaxşı xəbər,
Amma sifət nə qədər...
Sifət, sifət...
Özümü ələ alıram,
Şeytana lənət.
İçimdə boğulur nifrət
ətək-ətək,
tək qalmaq istəyirəm, tək.
Gündəlik qayğılar
Başımdan aşanda,
Dünyanın haqsızlığı
Aşıb, daşanda
Sıxır məni
Şövkət də, şan da,
Toy da, nişan da.
Qaçmaq istəyirəm
Gurultulu çal-çağırdan,
Zəngindən, fağırdan.
O anda
Bir sadə tütək almaq
Və təklik havası çalmaq
Keçir ürəyimdən.
Gözlərimi yumuram
əlacsız qalanda.
Təkliyə cumuram
İlk imkanım olanda.
Təklik -
fikrimin süsləndiyi
ən uca yüksəklik.
Təklik –
xəyalımın bəsləndiyi
ən xoş gerçəklik.